# Nizami Gəncəvi mədəni inteqrasiyaya böyük töhfələr verib

**Görkəmli şair, alim və mütəfəkkir Nizami Gəncəvi Qərblə Şərq arasında mədəni inteqrasiyaya böyük töhfələr verib. Bu sözləri AZƏRTAC-a müsahibəsində Çin Xalq Xarici Əlaqələr İnstitutunun prezidenti Vanq Çao bildirib. O, Nizami Gəncəvinin Çində də çox yaxşı tanındığını, Çin xalqının şairə ehtiramını nümayiş etdirmək üçün 2012-ci ildə Pekinin Çaoyan parkında abidəsinin qoyulduğunu vurğulayıb.**

Vanq Çao dahi şairin əsərlərində təbliğ olunan xalqlar və mədəniyyətlər arasında dialoq, tolerantlıq kimi ümumbəşəri dəyərlərin daha geniş miqyasda dünyaya çatdırılması işinə xidmət edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti və böyük dəstəyi ilə müxtəlif sivilizasiyalar arasında dialoqun və anlaşmanın təşviqində getdikcə daha vacib rol oynadığını, xalqlar arasında diplomatiya ilə məşğul olan dünya şöhrətli təşkilata çevrildiyini deyib.

Rəhbərlik etdiyi Çin Xalq Xarici Əlaqələr İnstitutunun Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə 2017-ci ildən əməkdaşlığa başladığını bildirən Vanq Çao deyib: Bu məhsuldar əməkdaşlıq iki xalq arasında dostluğa böyük töhfələr verib. Bizim fəaliyyətimiz dövlətlərimizin rəhbərləri tərəfindən yüksək qiymətləndirilib və dəstəklənib. Mənim sələflərim Mey Caoron və U Haylon müxtəlif illərdə Bakı Qlobal Forumunda iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin martın institutumuzun nümayəndə heyətini qəbul etməsi bizim üçün böyük şərəfdir.



Vanq Çao bildirib ki, 2019-cu ilin iyununda Çin Xalq Xarici Əlaqələr İnstitutunun birgə təşkilatçılığı Pekində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ali səviyyəli toplantısı keçirilib. Çinin vitse-prezidenti Van Çişan toplantı iştirakçıları ilə görüşüb. Mərkəzin üzvləri olan Avropanın sabiq dövlət adamları həm də Çin Xalq Xarici Əlaqələr İnstitutunun köhnə dostlarıdır. Həmin şəxslər Çin rəsmiləri, alim və tədqiqatçıları ilə fikir mübadiləsi aparıb, Çin ilə dünya ölkələri arasında qarşılıqlı fəaliyyətə kömək etmək, qlobal idarəetmə sistemini təkmilləşdirmək, qloballaşmaya və çoxqütblülüyə kömək etmək üçün yeni ideyalar irəli sürüblər. Bütün bunlar Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük dəstəyi olmadan mümkün olmazdı.

Müsahibimiz COVID-19 pandemiyasının canlı ünsiyyətə mənfi təsir göstərdiyini, bununla belə rəhbərlik etdiyi institutun mərkəzlə əməkdaşlığının dayanmadığını deyib: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri ötən il virus yayılmağa başlayanda Çinə dəstək məktubu göndərib, habelə ölkəmizə epidemiya əleyhinə vasitələr ianə edib. Bütün bunlara görə çox minnətdarıq. Bundan başqa, pandemiya dövründə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə keçirdiyimiz videokonfranslar zamanı pandemiyaya qarşı mübarizə tədbirlərini, vacib məsələlərə dair beynəlxalq vəziyyəti müzakirə etmişik. Mən bir daha vurğulamaq istərdim ki, Çin Xalq Xarici Əlaqələr İnstitutu həmişə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə münasibətlərinə böyük əhəmiyyət verib, dostcasına təmaslarımızın və əməkdaşlığımızın genişləndirilməsini davam etdirməyə hazırdır. Biz bunun sayəsində sivilizasiyalararası mübadilələrə və qarşılıqlı anlaşmaya, eləcə də bütün dünyada sülhün və inkişafın təmin olunmasına öz töhfəmizi verməyə ümid edirik. Mən ötən ilin martında Bakı Qlobal Forumunda iştirak etmək üçün Azərbaycana səfər etməli idim, lakin bu səfər pandemiyaya görə alınmadı. Bakı Qlobal Forumunda iştirakımı səbirsizliklə gözləyirəm".

**ELAN**